Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 3 (23.165)

5 yanvar 2019-cu il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Gənclərlə aparılan iş yeni mərhələyə qədəm qoyub

Azərbaycan gənclərinin əsl vətəndaş kimi formalaşmasında ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri var. Ulu öndərin zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tuturdu. Ümummilli lider dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında gənclərin iştirakının təmin edilməsini vacib məsələlərdən biri elan etmişdi. Bu istiqamətdə imzalanan fərman və sərəncamlar, qəbul edilən dövlət proqramları Azərbaycan gəncliyinin inkişafı yolunda çox mühüm amilə çevrilib.

Bu gün ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasəti ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Son illər muxtar respublikamızda gənclərimizin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, onların sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi, onların fəaliyyətlərinin qiymətləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür.

Görülən bu işlər çərçivəsində Naxçıvan şəhərində Gənclər və "Gənclik" mərkəzləri, kitabxanalar, ali təhsil müəssisələrində yeni tədris korpusları, yeni orta məktəb binaları, olimpiya-idman kompleksləri, idman mərkəzləri və digər saymaqla bitməyən obyektlər tikilib və ya əsaslı təmir olunaraq gənclərin istifadəsinə verilib. Həyata keçirilən tədbirlər nəticəsində gənclər cəmiyyətin aparıcı qüvvəsinə çevrilir, beynəlxalq idman yarışlarında və Azərbaycan birinciliklərində muxtar respublikanı layiqincə təmsil edirlər.

Gənc nəsli Vətənə, onun sərhədlərinə hörmət ruhunda tərbiyə etmək, yaradıcı düşünən, sağlam gənclər yetişdirmək və onlarda sərhədçi peşəsinə marağı artırmaq, ordu sıralarına hazırlamaq məqsədilə "Şahin" və "Sərhəd" hərbi idman oyunlarının rayon (şəhər) birinciliklərı və muxtar respublika zona birinciliyi keçirilir, gənclərin hərbi hissələrdə əsgərlərlə görüşləri təşkil edilir. Onlar hərbi qulluqçuların gündəlik yaşam və iş fəaliyyəti ilə tanış olurlar.

Gənclərin milli ruhda, vətənpərvər tərbiyəsi istiqamətində tədbirlər ötən il də uğurla davam etdirilib. Turizm imkanlarının tanıdılması məqsədilə "Naxçıvanı tanıyaq" devizi altında və Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ilə əlaqədar gənclərin tarixi abidələrə, muzeylərə və turizm məkanlarına ekskursiyaları təşkil olunub.

Gənclərin yaradılan şəraitdən səmərəli istifadəsinə nail olunması, onların mütaliə vərdişlərinin, dünyagörüşlərinin inkişafı məqsədilə "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilən əsərlərin müzakirəsi, gənc ifaçıların "Milli musiqilərimiz gənclərin səsi ilə" devizi altında konsert proqramı, "Gənclər ətraf mühitin çirklənməsinə yox deyir" devizi altında rayon və şəhərlərdə gənclərin iştirakı ilə təmizlik və yaşıllıqlara qulluq aksiyaları təşkil olunub. Bununla yanaşı, internet resurslarından düzgün istifadənin təbliğ edilməsi məqsədilə "Sosial şəbəkələrin müsbət və mənfi xüsusiyyətləri" mövzusunda muxtar respublikanın rayon və şəhərlərində yeniyetmə və gənclərlə görüşlər keçirilərək hazırlanmış slaydlar nümayiş etdirilir.

Ötən il Naxçıvan şəhəri həm də ölkəmizin Gənclər Paytaxtı olub. Bununla əlaqədar muxtar respublikada "Azərbaycançılıq və gənclik" adlı təbliğat kampaniyası çərçivəsində "Ümummilli lider Heydər Əliyevin Azərbaycançılıq məfkurəsinin gənclərin vətənpərvərlik tərbiyəsində rolu" mövzusunda konfrans keçirilib, Əcəmi seyrəngahında muxtar respublikanın incəsənət xadimlərinin və Bakı şəhərindən dəvət olunmuş gənc müğənnilərin ifasında konsert proqramı təşkil olunub. Naxçıvan şəhəri ətrafında və muxtar respublikanın hər bir rayonunda "Gənclər bağı" salınıb, "Hünər" XII Vətənpərvərlik Mahnı Festivalı keçirilib, Naxçıvan şəhərində yerləşən mərkəzi meydanda gənc müğənnilərin ifasında konsert proqramı təşkil edilib, Gənclər və İdman Nazirliyi tərəfindən ilk dəfə olaraq bir sıra layihələrə start verilib. Eyni zamanda "Naxçıvanı tanıyaq", "Gənclər Paytaxtı Naxçıvan" və "Naxçıvan gənclərin gözü ilə" devizləri altında fotomüsabiqələr təşkil edilib, əlamətdar günlərdə Naxçıvan Muxtar Respublikasının ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən yeniyetmə və gənclərin mükafatlandırılması mərasimi keçirilib.

Ötən dövr ərzində yeniyetmə və gənclər arasında müxtəlif bilik yarışları, intellektual oyunlar, olimpiadalar keçirilib. Mütəmadi olaraq Ağbulaq İstirahət Mərkəzində muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələrinin iştirakı ilə gənclərin qış və yay məktəbləri təşkil edilib.

2018-ci ilin sentyabr ayında muxtar respublikamızda daha bir mötəbər tədbir – "Avropa şəhərciyi"nin açılış tədbiri keçirildi. Naxçıvanlı gənclərin də fəal iştirak etdiyi bu möhtəşəm tədbir onların dünyagörüşündə, müasir düşüncə tərzinin formalaşması və inkişafında mühüm rol oynadı.

Naxçıvan şəhərində Türk Şurası Gənc Liderlərinin ilk forumunun keçirilməsi də mühüm hadisə kimi yadda qalıb. Çünki Naxçıvan Türk dünyasında xüsusi bir yerə və əhəmiyyətə malik olan məkandır. Onu qeyd etmək lazımdır ki, Türk dünyasının həmrəyliyinə, birliyinə yol açan mühüm bir təşkilatın quruluşunu özündə əks etdirən Naxçıvan Sazişi sayəsində Türk Şurası yaradılıb. Belə ki, Naxçıvan Sazişi 2009-cu ildə Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə toplantısında imzalanıb. Həmin ildən başlayaraq iqtisadiyyat, təhsil, turizm, idman və mədəniyyət sahələrində bir sıra layihələr həyata keçirilib. Bu layihələrin də reallaşdırılmasının əsasında Naxçıvan Sazişi dayanır. Muxtar respublikamızda keçirilən Türk Şurası Gənc Liderlərinin ilk forumu isə eyni soykökə, ortaq mədəniyyətə və tarixə malik olan türkdilli ölkələrin gəncləri arasında əlaqələrin daha da möhkəmləndirilməsinə, idman sahəsində əməkdaşlığın genişləndirilməsinə imkanlar açacaq.

Bu forumun ilk dəfə olaraq Naxçıvanda keçirilməsinin səbəblərindən biri qədim mədəniyyətə malik olan yurdumuzun bu gün bütün sahələrdə inkişafı, Türk dünyasının elm, mədəniyyət, maarifçilik və idman mərkəzinə çevrilməsidir.

Keçirilən forumda çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Muxtar respublikada gənclərin təhsili ilə yanaşı, onların işlə təminatı da əsas məsələlər sırasındadır. İstər dövlət idarəçiliyində, istərsə də ictimai və təsərrüfat fəaliyyətinin digər sahələrində gənclərə böyük etimad göstərilir. Ölkəmizin inkişafında, müstəqil dövlətimizin möhkəmlənməsində və müdafiəsində gənc kadrların potensialından geniş istifadə olunur. Naxçıvan şəhərində və rayon mərkəzlərində gənclər üçün yeni yaşayış kompleksləri və binaları tikilərək istifadəyə verilir, gənc ailələr mənzillə təmin olunur. Sağlam gəncliyin yetişməsində idman və bədən tərbiyəsi əsas şərtdir. Bunun üçün zəruri maddi baza yaradılıb. Bütün bunların nəticəsidir ki, ötən il ölkəmizdə keçirilən internet sorğuya əsasən Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhəri 2018-ci il üçün Azərbaycanın Gənclər Paytaxtı seçilmişdir. 2009-cu ildə Türkdilli ölkələrin dövlət başçılarının doqquzuncu zirvə görüşünün, bu gün isə Türk Şurası Gənc Liderlərinin ilk forumunun Naxçıvanda keçirilməsi mərkəz kimi Naxçıvanın əhəmiyyətini daha da artırır".***

Ali Məclisin Sədri Naxçıvanın bugünkü inkişafını və Türk dünyasındakı mövqeyini nəzərə alaraq burada Türk Universitetinin yaradılmasını təklif etmişdir.

Ötən il Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar "Azərbaycanda Belarus gəncləri günləri" çərçivəsində Belarus Respublikasından bir qrup gəncin Naxçıvan Muxtar Respublikasına səfəri də təşkil olunub. Səfərdə məqsəd Naxçıvanla Belarus arasında olan əlaqələri, münasibətləri genişləndirmək, yeni layihələr gerçəkləşdirməkdir.

Muxtar respublika gəncləri bu gün tarixinin ən məsuliyyətli dövrünü yaşayırlar. Qloballaşmanın vüsət aldığı və informasiya cəmiyyətinin sürətlə formalaşdığı hazırkı mərhələdə Naxçıvanımızda elmi-mədəni, təhsil və digər sahələrdə gənclərin daha fəal iştirakı təmin edilib, bu istiqamətdə aparılan işlər yeni mərhələyə qədəm qoyub.

Ceyhun MƏMMƏDOV

Kollegiya iclası keçirilib

Dünən Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyində 2018-ci ildə görülən işlər və qarşıda duran vəzifələrlə bağlı kollegiya iclası keçirilib.

İclasda Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova məruzə ilə çıxış edərək bildirib ki, 2018-ci il ərzində əlamətdar və tarixi günlərlə bağlı 652 tədbir olmaqla, ümumilikdə, 4520 müxtəlif mədəniyyət tədbiri keçirilib, 588 sərgi təşkil edilib. Xalqımızın milli-mənəvi dəyərlərinin yaşadılması, qorunması və təbliğ edilməsi, görkəmli şəxsiyyətlərin yubileylərinin, tarixi və əlamətdar günlərin qeyd olunması diqqətdə saxlanılıb.

Vurğulanıb ki, ilin mühüm mədəniyyət hadisələrindən biri də "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" UNESCO-nun Təcili Qorunma Siyahısına salınmasıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 24 dekabr tarixli "Şərur yallıları haqqında" Sərəncamı isə mədəniyyətimizə göstərilən daha bir diqqət və qayğının bariz ifadəsidir.

Mart ayının 17-dən 27-dək "Şərur" Xalq Yallı Ansamblı Türkiyənin Kastamonu şəhərində keçirilən "Kastamonu – 2018 Türk Dünyası Mədəniyyət Paytaxtı" açılış mərasimində müxtəlif yallı nömrələri ilə çıxış edib.

Diqqətə çatdırılıb ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar Bursa Bölgə Dövlət Simfonik Orkestrinin Heydər Əliyev Sarayında konserti olub, Naxçıvan Dövlət Filarmoniyasının yeni yaradılan Simfonik Orkestrinin Heydər Əliyev Muzeyinin qarşısında təqdimat konserti təşkil edilib, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmiş mahnı müsabiqəsi keçirilib.

Hesabat dövründə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və nazirliyin sisteminə daxil olan müəssisə və təşkilatlar tərəfindən "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" mədəniyyət ilinə həsr olunmuş müxtəlif xarakterli tədbirlər davamlı olaraq təşkil edilib. Belə ki, mədəniyyət ilinə həsr olunmuş 263, bu deviz altında 2509 olmaqla, ümumilikdə, 2772 tədbir keçirilib.

20 iyun tarixdə Naxçıvan Dövlət Musiqili Dram Teatrında "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış mərasimi, dekabrın 15-də isə Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında bağlanış tədbiri olub. Bu əlamətdar hadisə ilə bağlı Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun himayəsində yaradılmış "Dədə Qorqud" Kamera Orkestrinin konserti olub, "Gənclik" Mərkəzində "İslam filmləri həftəsi" keçirilib.

Mədəniyyət naziri diqqətə çatdırıb ki, bəhs olunan dövr ərzində "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən "Kətə", "Göycə", "Arıçılıq məhsulları – bal", "Ailə təsərrüfatı məhsulları", "Milli geyimlər" festivallarında nazirliyin tabeliyindəki müxtəlif mədəniyyət kollektivləri rəngarəng konsert proqramı ilə çıxış ediblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamının icrası ilə bağlı müvafiq ixtisasların tələbələri üçün 13 açıq dərs və 1 dəyirmi masa, 1 konfrans, 21 ustad dərs, ali və orta ixtisas təhsili müəssisələrində 6 kitab müzakirəsi keçirilib.

Nazir bildirib ki, hesabat dövründə 14 yeni tamaşa hazırlanıb, xalq teatrları tərəfindən 18 tamaşa oynanılıb. Filarmoniyanın kollektivləri il ərzində müxtəlif dövlət tədbirlərində, festivallarda və yay konsertlərində iştirak edib. Ötən ilin iyun-sentyabr aylarında Naxçıvan şəhərinin park və meydanlarında 9 konsert təşkil edilib, 8 "Xalq yaradıcılığı günü" keçirilib.

Hesabat dövründə muzeylərdə 8 eksponat təqdimatı keçirilib, mədəniyyət müəssisələrinə 1564 ədəd eksponat daxil olub. 2018-ci ildə muzeyləri, ümumilikdə, 592 min 683 tamaşaçı ziyarət edib ki, onlardan 178 min 469 nəfəri əcnəbi vətəndaşdır.

Ötən il Bəhruz Kəngərli Muzeyinin, Naxçıvan Duz Muzeyinin, Qarabağlar Türbə Kompleksinin saytları fəaliyyətə başlayıb, Mədəniyyət Nazirliyinin yeni *www.nmn.az* saytı yaradılıb.

Qeyd olunub ki, hesabat dövründə kitabxanaların fəaliyyəti diqqət mərkəzində saxlanılıb, keçirilən tədbirlərin səmərəliliyinə nəzarət artırılıb. Bu dövrdə kitabxanalarda 957 mədəni-kütləvi tədbir keçirilib.

Bildirilib ki, hesabat dövründə mədəniyyətimizin inkişafındakı xidmətlərinə görə 10 nəfər Prezident mükafatına, 2 nəfər "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi", 4 nəfər "Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adlarına, 4 nəfər "Tərəqqi" medalına layiq görülüblər.

Natəvan Qədimova çıxışının sonunda qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi bundan sonra da qədim diyarımızda mədəniyyət və incəsənətin inkişafı sahəsində qarşıya qoyulan vəzifələri layiqincə həyata keçirəcəkdir.

Sonra məruzə ətrafında çıxışlar olub.

Kollegiya iclasında nazirliyin 2019-cu il üçün iş planları təsdiq edilib.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti

"Sərhəd" məfhumu mənim üçün həmişə müqəddəs sözlərimiz sırasında olub. Bu söz həm də dövlət rəmzlərinin ifadə etdikləri nüanslardan olduğu üçün müqəddəsdir. Böyük məna kəsb edən sərhəd Vətənimizin başlandığı yerdir. O yer ki igid oğullarımız tarixən həmin ünvanlarda soyuğa, istiyə, qara, yağışa baxmayaraq keşik çəkiblər Vətən naminə! Zaman-zaman torpaq müqəddəsliyi, yurd sevgisi o vaxt sərhədlərimizi qoruyan atababalarımızın qanı ilə bu günümüzün övladlarına keçib. Odur ki, indi də hər birimiz öz evimizdə, öz işimizdə arxayınçılıqla yaşayır, işləyir, sərhədlərimizi qoruyan igid oğullarımıza "Allah sizi qorusun", – deyirik...

Sərhəd yaşayış məntəqələrinə yolum düşərkən həmişə belə hisslər məni öz ağuşuna alır. Düşünürəm ki, bu da təbiidir. Bu gün, baxmayaraq ki, güclü, nizamlı ordumuz var, ancaq düşmən elə düşməndir. Ona görə də sərhəd zonalarında məskunlaşmış soydaşlarımız da sərhədlərimizi qoruyan oğullarımız kimi sərhədçi ömrü yaşayırlar. Ancaq arxayındırlar. Tam arxayın. Güclü, gündən-günə hərbi qüdrəti daha da artan ordumuzun qorxusundan o torpaqlarımıza quş da səkə bilməz. Belə ünvanlarımızda bu gün yaradılmış infrastruktur isə insanları sərhəd bölgələrimizə daha sıx tellərlə bağlayıb. Və muxtar respublikanın bütün bölgələrində həyata keçirilmiş kompleks quruculuq tədbirləri düşmənə gözdağı olmaqla qədim diyarımızın sakinlərinin qurub-yaratmaq əzmini daha da gücləndirib. Ulu Dədə Qorqudun hər birimiz üçün aforizmə çevrilmiş "Torpağı qorumursansa, əkməyə, əkmirsənsə, qorumağa dəyməz" fikrini əsas məram kimi qəbul edən insanlarımız torpağı qoruyur və əkib-becərirlər. Bunun üçün yaradılmış şəraiti Şərur rayonunun Yuxarı Yaycı kəndində də görmək olar.

Bu qış günlərinin birində üz tutduq həmin yaşayış məntəqəsinə. Naxçıvan-Sədərək magistralının Yuxarı Daşarx kəndi ərazisindən ayrılan yol bizi Yuxarı Yaycı kəndinə aparır. Yolboyu gördüyümüz qış mənzərələri insanı valeh edir.

Qəsəbə timsallı Aşağı Yaycı kəndini keçib Yuxarı Yaycıya yol alırıq. Rayonun ən hündürlükdə yerləşən bu kəndinə yaxınlaşdıqca havanın bir az da soyuduğunu hiss edirik. Müasir standartlar əsasında salınmış yol az bir vaxt ərzində bizi kəndə çatdırır. Yolyoldaşım və həmkarım – Azərbaycan Respublikasının Əməkdar jurnalisti Elman Məmmədov deyir ki, dağ və dağətəyi yaşayış məntəqələrində ilin bu fəslində havanın kəskin dəyişməsi təəccüblü deyil. Buna kənd adamları da öyrəşiblər.

Kəndin meydanında yerləşən, müasir arxitektura üslubunda inşa edilmiş kənd mərkəzi ilk tanış olduğumuz ünvandır. Bura 2015-ci ilin noyabr ayında istifadəyə verilib. Kənd mərkəzində rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, arxiv, mədəniyyət evi üçün otaqların və 45 yerlik iclas zalının istifadəyə verilməsi bu təşkilatlarda çalışanların məsuliyyətini daha da artırıb. Mərkəzdəki rabitə evində poçt bölməsi yaradılıb, kommunal ödənişlərin qəbulu, dövri mətbuatın, gündəlik danışıq və internet kartlarının satışı təşkil olunub. Həmçinin kəndə 6 kilometr uzunluğunda fiber-optik xətt çəkilib, sürətli internetdən istifadə imkanları yaradılıb.

Əhalinin sağlamlığı diqqət mərkəzində saxlanılaraq mərkəzdə feldşer-mama məntəqəsi üçün də otaqlar ayrılıb. Burada ilkin tibbi yardım avadanlıqları qoyulub.

Məntəqənin müdiri Vəli Quliyev burada yaradılan şəraitdən razılıqla danışır. Deyir ki, sakinlər arasında səhiyyə maarifi işi aparılması diqqət mərkəzində saxlanılır, yaşlı insanlara, körpələrə evlərində tibbi xidmət göstərilir. Kənd camaatı da onlara göstərilən xidməti dövlətimizin öz vətəndaşlarına qayğısı kimi dəyərləndirir.

İnzibati ərazi dairəsi üzrə nümayəndə Mirqasım Eminov uzun illərdir ki, bu vəzifədə çalışır. Sakini olduğu bu kənd barəsində ürəkdolusu danışır: – Ucqar dağ və sərhəd kəndlərində yaşamağın çətinlikləri barədə çox deyilir. Bəlkə də, nə vaxtsa, belə olub. Ancaq o yerdə ki mövcud problemlərin həllinə həssaslıqla yanaşılır, insanların problemləri öz həllini tapır, onda orada yaşamaq da gözəldir. Belə ünvanları əhatəsinə alan dağlar, həmin yaşayış məntəqələrinin təmiz havası və suyu, buralarda yetişdirilən məhsullar həm də insanların uzunömürlülüyünün başlıca səbəbləridir.

Kənd sakinləri Kərim Şərifov, Fatma Nadirova 100 yaşın astanasındadırlar. Onlar deyirlər ki, ən hündür zirvədə yerləşən Bəysalı, Cənnət qayası, Ağzərə, Xizəngi, Qabaqyal, Qızıldərə, Allahverdi qayası, Kölgəli, Qızılçevirmə dağları qış aylarında ağ örpəyə bürünür, yazda isə yamacları yaşıllığa qərq olur. Möhtəşəmlik rəmzi sayılan dağlar dünya binə olandan bu kəndin keşiyində dayanıb. Ötən əsrin səksəninci illərinin sonlarında baş verən hadisələr zamanı bu dağlar yaycılılara səngər olub. Yadıma Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri olan Aşıq Ələsgərin "Dağlar" şeiri düşür:

Ağ xələt bürünər, zərnişan geyməz,
Heç kəsi dindirib keyfinə dəyməz,
Sərdara söz deməz, şaha baş əyməz,
Qüdrətdən səngərli, qalalı dağlar.

Dağlar öz səxavətini bu kəndin sakinlərindən əsirgəməyib. İlboyu o dağların yamaclarında qoyun-quzu sürüləri gözə dəyir. Yeri gəlmişkən qeyd edək ki, kənddə maldarlığın inkişafına ciddi önəm verilir. Bunun ifadəsidir ki, Yuxarı Yaycıda 350-dən çox heyvanın südündən, pendirindən, ətindən istifadə olunur. Yazda yamaclarda bitən yüzlərlə bir-birindən ətirli gül-çiçək Yuxarı Yaycıda arıçılığın inkişafında mühüm rol oynayır. Bu gün kənddə 350-dən artıq arı ailəsi saxlanılır.

Yuxarı Yaycıda 20-yə yaxın bulaq var. Suyu dişgöynədən Məşədi Abbas, Teyfə, Cinni, Əsgərbəy, Tənbəlin, Qazı bulaqları və başqa su mənbələri ilboyu çağlayır. Kəndin bəzi həyətləri həmin çeşmələrin suyu ilə suvarılır. Ağbulaq, Dədəli bulağı, Qızıldərə bulağı həm də müqəddəs pir yerləridir. Bu pirləri başqa yerlərdən ziyarət etməyə gələnlər də var. Yaycılılar həmin bulaqlar qurumasın deyə, ilin bütün fəsillərində nəzarət edirlər. Bulaqlar mənbəyini dağlardan götürdükləri üçün onların suyu çox təmiz və keyfiyyətlidir. Belə su mənbələri vasitəsilə suvarılan 30 hektar meyvə bağının məhsulları da çox dadlı olur. Tırman zəmisi, Bəyinin bağı, Şirqanlı, Qələmətli bağlarında ərik, cəviz, badam, armud, tut yetişdirilir. Hər il o bağlardan tonlarla məhsul tədarük edilir.

Mirqasım Eminov 2015-ci ilin noyabr ayında kompleks quruculuq tədbirləri sayəsində kənddə istifadəyə verilən yeni məktəb binası barədə də danışır. Ora getməyi qərara alırıq. Yuxarı Yaycı kəndində təhsilin inkişafına ciddi diqqət yetirilməsinin nəticəsidir ki, yaşayış məntəqəsinin təhsil ocağını bitirən Miryasin Eminov, Rəşid Bəşirov, Vəli Fətəliyev və başqaları müxtəlif elm sahələri üzrə fəlsəfə və elmlər doktorlarıdır. Mərhum tarixçi-alim Əli Əliyevi həmyerliləri ehtiramla xatırlayırlar. Məktəbin direktoru Qəmər Nəbiyeva deyir ki, yeni məktəb binası belə alimlərin sayının çoxalmasına imkan verəcək, daha böyük uğurlar qazanılmasını təmin edəcək.

57 şagirdin təlim-tərbiyəsi ilə 19 müəllimin məşğul olduğu məktəb binası 144 şagird yerlikdir və 2 mərtəbədən ibarətdir. Burada 3-ü elektron lövhəli olmaqla, 12 sinif otağı, kimya-biologiya laboratoriyaları, hərbi kabinə, kompüter və müəllimlər otaqları, bufet və idman zalı vardır. Müəllim və şagirdlər zəngin fonda malik kitabxanadan istifadə etmək imkanı qazanıblar.

Məktəbin pedaqoji kollektivi təhsil ocağında işin səmərəli qurulmasına səy göstərir, dövlətçiliyimizə, müstəqilliyimizə sadiq olan vətənpərvər nəsil yetişdirmək üçün müasir təlim üsullarına üstünlük verir, məktəbdənkənar və sinifdənxaric məşğələlərin nümunəvi təşkilinə çalışır. Məqsəd doğma Azərbaycanımızın, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın ulu keçmişini, ümumilikdə, mədəniyyətimizi, ədəbiyyatımızı, milli-mənəvi dəyərlərimizi bugünkü məktəblilərə aşılamaq, onları doğma yurd yerinə məhəbbət ruhunda formalaşdırmaqdır. Torpaqlarımızın bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmış Yaqub Həsənov bu məktəbin məzunu olub. Məktəbdə vətənpərvərlik tərbiyəsinə ciddi önəm verilməsinin nəticəsidir ki, Yaqubu görməyən bugünkü şagirdlər də onun keçdiyi qısa və şərəfli ömür yolu barədə hərtərəfli məlumata malikdirlər.

Kənd ziyalılarının toplaşdığı məktəbdə Yuxarı Yaycı kəndinin tarixi və bu toponimin etimologiyası ilə maraqlanıram. Bildirirlər ki, vaxtilə Dərələyəz və Biləv mahallarında iki Yaycı kəndi olduğu iddia edilir. XIX əsrdə Qafqazda isə Yaycı adında 8 kənd mövcud olub. Hazırda Naxçıvanda 3 yaşayış məntəqəsi Yaycı adını daşıyır ki, bunların biri Culfa, ikisi isə Şərur rayonundadır. Elmi ədəbiyyatlarda "Yaycı" sözünü vaxtilə mövcud olmuş "Yayıcılar" adlı qədim türk tayfasının adı ilə əlaqələndirirlər. Mənşəcə səlcuq-oğuz tayfalarından sayılan bu tayfanın bir qismi Azərbaycanda, o cümlədən Naxçıvanda məskunlaşıb, yaşadıqları əraziyə həmin tayfanın adını veriblər. Bu qənaəti AMEA-nın müxbir üzvü mərhum Adil Bağırov da təsdiq edib.

Yolüstü Yuxarı Yaycı kəndində istifadəyə verilən xidmət mərkəzində də olduq. Burada bərbərxana və mağaza fəaliyyət göstərir. Ticarət və məişət xidmətlərinin təşkili sakinlərin rahatlığına şərait yaradıb. Mağazada zəruri ərzaq və sənaye mallarının satışı təmin olunub.

Bu gün muxtar respublika sakinləri söhbətlərində "müasir", "müasirlik" sözlərini tez-tez işlədirlər. Səbəbi isə odur ki, qədim diyarımızın yolları, yaşayış məntəqələri tamamilə yenilənib. Kəndlərdə, rayon mərkəzlərində yaradılmış infrastruktur müasirliyin tələblərinə tam cavab verən səviyyədədir. Buna görə də həmin sözlər dilimizdə, həqiqi mənada, ümumişləklik qazanıb.

Sərhəd kəndi Yuxarı Yaycı da müasir görkəmdədir. Bu isə diyarımızda şəhər və kənd arasında olan fərqlərin aradan götürülməsi istiqamətində həyata keçirilən tədbirlərin sürətlə davam etdirilməsinin, belə tədbirlərin həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilməsinin ifadəsidir.

Müasirləşən kəndlərimiz

Bir qış günü sərhəd kəndində

Yuxarı yaycılılar öz kəndləri ilə qürur duyurlar

✍ **Muxtar MƏMMƏDOV**

Kənd təsərrüfatının inkişafını müasir texnika və texnologiyalarsız təsəvvür etmək qeyri-mümkündür

Kənd təsərrüfatı sahəsində əldə olunmuş nəticələr deməyə əsas verir ki, aqrar sektorun inkişafı dinamik xarakter alıb. Muxtar respublika əhalisinin ərzaq məhsulları ilə təmin olunmasında qəbul edilmiş dövlət proqramlarının uğurla həyata keçirilməsinin müstəsna əhəmiyyəti olub.

Son illər dünya ölkələrində baş verən proseslər, əhalinin ərzaq məhsulları ilə təmin olunmasını prioritet məsələ kimi ortaya çıxarır. Buna görə də istər ölkəmizdə, istərsə də muxtar respublikamızda kənd təsərrüfatının inkişafı dövlətimizin diqqət mərkəzindədir. Bu, eyni zamanda torpaq mülkiyyətçilərinin də qarşısında mühüm vəzifələr qoyur.

Muxtar respublikanın rayonlarında mövcud olan bütün növ kənd təsərrüfatı texnikalarının miqdarı araşdırılarkən müəyyən olunub ki, 10-13 il əvvəl burada təkcə kolxoz, sovxozların ləğvi ilə əlaqədar fiziki şəxslərə verilmiş texnikalar mövcud idi. Həmin texnikaların da əksəriyyətinin istismar müddətini başa vurmuş, köhnəlmiş olması kənd təsərrüfatı işlərinin keyfiyyətlə yerinə yetirilməsində xeyli çətinliklər yaradırdı.

Müasir dövrdə isə kənd təsərrüfatının inkişafını yeni texnika və texnologiyalarsız

təsəvvür etmək qeyri-mümkündür. Qloballaşan iqtisadi münasibətlər, dünya bazarında yüksək rəqabətlilik, kənd təsərrüfatı və ərzaq məhsullarına qarşı artan təhlükəsizlik tələbləri dövrümüzün ən vacib məsələsidir. Bu sahədə yeni texnologiyaların tətbiqi, eləcə də hazır məhsulun itkisiz yığılması və tədarükü aktual məsələlərdən biridir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci ildə imzaladığı "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına uyğun olaraq "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin yaradılması aqrar sektorda nəzərdə tutulan işlərin yerinə yetirilməsinə, sahibkarların əməyinin yüngülləşdirilməsinə, onların lazımi texnika və avadanlıqlarla vaxtında və güzəştli şərtlərlə təmin edilməsinə böyük töhfə verib. Ötən dövr ərzində cəmiyyətin xətti ilə 2300-dən çox müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqlar alınaraq muxtar respublikaya gətirilib. Həmin texnika və avadanlıqların 2000-dən çoxu torpaq mülkiyyətçilərinə, mexanizatorlara nağd və ya lizinq yolu ilə satılıb.

Hazırda muxtar respublikanın kənd təsərrüfatında Almaniyanın, Finlandiyanın, İtaliyanın, Türkiyənin, Çinin və digər ölkələrin tanınmış şirkətlərinin istehsalı olan texnikalardan istifadə olunur.

Kənd təsərrüfatı texnikalarının imkanlarından daha səmərəli istifadə edilməsi üçün texnikalara müntəzəm olaraq texniki qulluq göstərilməli, onların texniki xarakteristikasına uyğun olaraq müəyyən edilmiş istismar müddəti keçdikdən sonra dəyişdirilməli, zəruri olan hissələr yenisi ilə əvəz edilməlidir. Bu texnikaların daimi olaraq ağır yük altında və əlverişsiz meteoroloji şəraitdə işləməsi müntəzəm texniki qulluğu və ehtiyat hissələri ilə təchiz edilməsini zəruri edir.

Ötən ildə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisləri tərəfindən muxtar respublikanın rayonlarında hüquqi və fiziki şəxslərə məxsus kənd təsərrüfatı texnikalarının siyahısı dəqiqləşdirilib, texniki cəhətdən yararsız olan və bərpası mümkün olmayan texnikalar müəyyənləşdirilib və müvafiq tədbirlər görülüb.

Onu da deyək ki, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin və onun rayon bazalarında son illərdə tikilib istifadəyə verilmiş müasir tələblərə cavab verən təmir emalatxanaları mövcuddur. Mülkiyyətində kənd təsərrüfatı texnikası olan hər bir fiziki və ya hüquqi şəxs bu emalatxanalardan yararlana bilər. Eyni zamanda cəmiyyətin rayon bazaları tərəfindən bütün növ kənd təsərrüfatı bitkilərinin əkilib-becərilməsi sahəsində istənilən növ xidmətlər həyata keçirilir və torpaq mülkiyyətçiləri bu xidmətlərdən səmərəli istifadə edə bilərlər.

Səbuhi HƏSƏNOV
Naxçıvan Muxtar Respublikası
Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı

Məhəllələr təkcə kütləvi yaşayış yerləri yox, həm də məişətimizi milli mədəniyyətin bir nümunəsinə çevirən ərazilər olub

Naxçıvanımızın mehriban, gülərüz, qonaqpərvər, xoşxasiyyət insanlarından, xüsusilə yaşlı sakinlərindən şəhərdə yerləşən hər hansı bir ünvanı soruşduqda onların çoxu, heç şübhəsiz, sizə həmin ünvanı yerləşdiyi küçənin adı ilə deməyəcək. Çünki burada ta qədimdən böyük məhəllələr olub və yerli sakinlər ünvanları daha çox həmin məhəllə adları ilə tanıyıblar. Elə indinin özündə də şəhər sakinləri və yaxud sürücülər getmək istədiyiniz ünvanı filan məhəllədəki hər hansı bir obyektlə əlaqələndirəcək. Yəni keçmişdə olduğu kimi, müasir dövrümüzdə də Naxçıvanda məhəllə adları küçə adları ilə müqayisədə daha populyardır. Əslində, bunun da maraqlı səbəbləri var. Hansı ki bu özünəməxsusluq Şərq həyat tərzinə, mühitinə daha uyğundur. Məsələn, küçə, prospekt, xiyaban kimi ünvan bildirən ərazilər kütləvi yaşayış yerləri olan şəhərlərdə sonralar yaranıb və bu da şəhər ərazilərinin genişlənməsi, sakinlərin sayının artması zərurətindən ortaya çıxıb.

Məhəllələrin tarixi isə daha qədimdir. Eyni zamanda burada maraqlı məqamlardan biri də odur ki, Şərq həyat tərzinə uyğun olaraq bir məhəllədə yaşayan insanlar bir-birlərini daha yaxından tanıyıb, ictimai və məişət işlərində birgə fəallıq göstəriblər. Lakin bunu Qərb həyat tərzinə uyğun şəhərdəki bir prospektdə yaşayan sakinlər haqqında demək mümkün deyil. Bu mənada, Naxçıvandakı məhəllələr təkcə kütləvi yaşayış yerləri kimi yox, həm də məişətimizi milli mədəniyyətin bir nümunəsi kimi təqdim edən ərazilər olub. Hər məhəllənin öz məscidi, hamamı, bulağı, meydanı və sair bu mədəniyyətin daha çox mental xüsusiyyətlər üzərində formalaşmasını təmin edib. Elə buna görədir ki, Naxçıvandakı məhəllələr xalqın həyat tərzində mühüm rol oynayıb. Belə məhəllə adlarının sonralar küçə adlarına "məğlub olmaması"nın səbəbi, bəlkə də, bu mentallığın görünməyən tərəflərindəndir. Buna görədir ki, illər keçsə də, şəhər sakinlərinin dilində Zaviyə, Şahab, Pirqəmiş, Sarvanlar, Əlixan, Gomayıl, Xoşulu, Atabəylər, Qurdlar, Qala məhəllələri kimi adlar yenə yaşayır.

"Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Naxçıvan şəhərinin məhəllələri barədə yazılır ki, 11 məhəlləsi – Qaziyi-cahan (digər adı Xacə Mirixan), Seyid Hüseyn, Molla Əhməd, Mirzəbəy, Şahab, Günbəz (digər adı Nuri-Kamanlar), Bala, Hacıbəy, Xuzəmərək, Tizxiran, Qala, Məhəlleyi-gebran olan Naxçıvan şəhəri XVIII əsrin 20-ci illərində iki məhəlləli – Aşağı və Yuxarı məhəllələrdən ibarət şəhər olmuşdur". Bəzi kameral siyahılarda Naxçıvan şəhərinin qədimdən 4 məhəllədən – Sarvanlar, Şahab, Əlixan və Qurdlar məhəllələrindən ibarət olduğu bildirilir. Sonralar, yəni artıq 1831-ci ildə bu 4 məhəllə ilə birlikdə 13 məhəllənin – Oruc, Köhnəqala, Xoşulu, Çaparxanlı, Ziyilarxlı, Billici, Xoylu, Qalalı və Təzəkənd məhəllələrinin yarandığı qeyd olunur. Bu məhəllələrin əksəriyyətinin yaranma tarixi haqqında araşdırmalar aparılmasa da, belə məhəllələr yenə də xalqın yaddaşında yaşayır, dilində səslənir.

Haqqında söhbət açacağımız qədim Əlixan məhəlləsi də məhz Naxçıvanın belə tanınmış məhəllələrindən olub. Məhəllənin dünəni, bu günü haqqında ən dolğun məlumatı isə, təbii ki, elə məhəllənin öz sakinləri verə bilər. Elə Əlixan məhəlləsi haqqında həmsöhbət olduğumuz müsahiblərimiz də burada doğulub boyabaşa çatmış 81 yaşlı Əbülfəz Orucov və 70 yaşlı Fərhad Bağırov oldu. Ancaq onlarla söhbətə keçid almazdan əvvəl bildirək ki, Əlixan məhəlləsi İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin ərazisindən başlayaraq Əziz Əliyev küçəsində yerləşən və "Qonaq evi" kimi tanınan ərazilər də daxil olmaqla, 3 nömrəli tam orta məktəbin qarşısından keçən avtomobil yolunadək sahəni əhatə edirdi. Deyilənlərə görə, məhəllənin adı Azərbaycanın zadəgan sülalələrindən biri olan Əlixan sülaləsinin adı ilə bağlıdır. Görkəmli Azərbaycan yazıçısı və dramaturqu Hüseyn Cavid də məhz bu məhəllədə doğulub və yaşayıb. Ədibin Naxçıvan şəhərindəki ev-muzeyi də hazırda bu məhəllədə yerləşir. Mərhum dilçi-alim, filologiya elmləri doktoru Adil Bağırov yazırdı ki, Əlixan məhəlləsinin adının yaranma tarixi, təxminən, XVII əsrin əvvəllərinə təsadüf edir. Məhəllə kəngərlilərə məxsus ailələrin burada yaşaması nəticəsində formalaşıb və yarandığı gündən şəhərdaxili idarəetmənin tərkib hissəsinə çevrilib, inzibati statusa malik olub. Bir zamanlar burada müxtəlif sənətkarlıq dükanları, boyaqçılıq, xırdavat satışı ilə məşğul olan bir çox sənətkar və satıcıların toplaşdığı ərazilərdən olub. Məhəllə tayfa başçısı Əlixan tərəfindən idarə edilib. Ağsaqqal məhəllənin bütün işlərini şəhərin ümumi işləri ilə tənzimləyib, buradakı məscid və meydanda bir çox tədbirlər keçirib. Bu tədbirlər, əsasən, məhəlləni səliqəli saxlamaq, Bazarçaydan keçən arxları təmizləmək, ağacları budamaq, xeyir və şər işlərində sakinlərin birgə iştirakını təmin etmək və sairdən ibarət idi.

Məhəllə sakini Əbülfəz Orucovun dediklərindən:

– Hələ mən uşaqkən ata-babamdan bu məhəllənin adının burada yaşamış xeyriyyəçi Kərbəlayı Əlixan Kəngərlinin adı ilə bağlı olduğunu eşitmişəm. Deyilənlərə görə, Kərbəlayı Əlixan Kəngərlinin (1888-1935) ikimərtəbəli iqamətgahı indiki Hüseyn Cavid məqbərəsi ilə üz-üzə olub. 1918-1920-ci illərdə erməni Andranikə qarşı şəhər (məhəllə) könüllülərini silahlandırdığı üçün güllələnib. Mərhumu Hacı Məhəmmədtağı Sidqinin (1854-1903) Naxçıvan qəbiristanlığındakı məzarı yaxınlığında dəfn ediblər. Ancaq sonralar bu məzar yeri də uçurulub, dağıdılıb.

Əbülfəz dayı deyir ki, Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin arxasında vaxtilə köhnə məktəb binası olub. Eyni zamanda burada həm də bir məscid binası varmış. Deyilənlərə görə, hər ikisi elə həmin xeyriyyəçi tərəfindən tikilib. 1970-ci ildə məhəllə ərazisində söküntü işləri aparılarkən Əlixan məhəllə məscidi uçurulur və yerində güləş idman məktəbi üçün bina tikilir. Hazırda yenidən qurulmuş bu binada yenə də güləşçi idmançılar yetişdirilir.

Əlixan məhəllə məscidi ilə bağlı rast gəldiyimiz mənbədə qeyd olunur ki, əvvəllər bu məhəllədə fəaliyyət göstərmiş məscid binasının son illərə kimi xaraba divarı qalırmış. Bu divarda iki mehrab yeri varmış. Bina çiy kərpicdən tikilmişdi. Deyilənlərə görə, məsciddə eyni vaxtda 60 nəfər namaz qıla bilirmiş.

Əbülfəz kişi deyir ki, buradakı məscidin minarəsi olmadığından müəzzin taxta nərdivanla dama qalxıb əzan verərdi. İkinci Dünya müharibəsi ərəfəsində və ötən əsrin 50-ci illərinədək məsciddə məhəllənin dindarları namaz qılıb, mərasimlər (təziyələr) keçirərdilər. Məscidin axundu Hacı Talıb olub.

Adını yuxarıda çəkdiyimiz məhəllə sakini Fərhad Bağırov deyir ki, əvvəllər bu məhəllədən Bazar çayı keçərdi. Bu çay mənbəyini Naxçıvan çayından götürürdü və məhəllə içərisindən axaraq indiki Qızlar bulağı dediyimiz yerdən keçərək Edilağa gölünə tökülürdü. Məhəllədə bir neçə yerdə kəhrizlər var idi. Əvvəllər bura bolsulu yer olub. Məhəllə sakinlərindən heyvan saxlayanlar da var idi, əkinçiliklə məşğul olanlar da. Suyu bol olduğuna, həm də çay məhəllədən keçdiyinə görə burada çox sayda tut, cəviz, çinar, qələmə və digər ağaclar var idi.

Əbülfəz dayı ötən günləri yadına salaraq bildirir ki, o zamanlar tanınmış, nisbətən böyük məhəllələrin özünün un dəyirmanı olardı. Bizim məhəllənin dəyirmanı da indiki Qonaq evinin yerində yerləşirdi. İkinci Dünya müharibəsi dövründə vəziyyət çox ağır idi. Məhəllədəki əli silah tutanların çoxu müharibəyə getmişdi. Yadımdadır, həmin çətin illərdə bu dəyirmana taxıl üyütməyə gəlirdilər. Uşaq olsam da, mən də bir neçə dəfə böyüklərlə birgə taxıl üyütmək üçün həmin dəyirmanda olmuşdum. Dəyirmandan bir az aşağıda isə – biz ora "Günbəz" deyirdik, bir pir var idi. Məhəllə adamlarının çoxu tez-tez bu piri ziyarət edərdi. Elə indinin özündə də ora gedənlər var. Yəni məhəlləmiz, belə deyək ki, balaca bir şəhər idi. Məscid, məktəb, dəyirman, dükan – ehtiyacımızı ödəyəcək hər şey vardı.

Müsahiblərimizdən o dövrün məhəllələrinin xüsusiyyətlərindən danışmağı xahiş edirəm. Ağsaqqal Əbülfəz dayı deyir ki, keçmişdə məhəllədə hamı bir-birini yaxından tanıyardı. Hər kəs bir-birinin xeyrində-şərində yaxından iştirak edər, birinin bir problemi olduqda, hər kəs canla-başla öz köməyini əsirgəməzdi. Ancaq bütün işlərdə məhəllənin bir sözükeçən ağsaqqalı, nüfuzlu başbiləni olardı. Həmin şəxs məhəllə sakinləri arasında kiminsə bir-biri ilə problemi olanda onu da yoluna qoyardı. Yəni ağsaqqal sözünə hər zaman böyük önəm verilərdi. Bu haqda çox şey danışmaq olar. Bir sözlə, məhəllə hər birimizin evi sayılırdı.

Əlixan məhəlləsinin qocaman sakinləri ilə söhbətimiz bir xeyli çəkir. Məhəllənin toy adət-ənənələrindən tutmuş təmizlik işlərinədək, sovet dövrü gənclərinin məhəlləarası davalarından tutmuş Əlixan məhəlləsinin yetirmələrinədək çox şeydən danışırıq. Günortaya yaxın müsahiblərimdən ayrılıb elə məhəllə yollarını piyada gəzə-gəzə redaksiyaya qayıdıram. Yadıma bu məhəllənin yetirməsi, şairə-dramaturq Kəmalə Ağayevanın böyük sevgi ilə qələmə aldığı "Əlixan məhəlləsi" adlı kitabından bu misralar düşür:

Ömrümün rayihəsi,
Şeirimin qafiyəsi
Ey könül nişanəsi,
Əlixan məhəlləsi...

✍ **Gülcamal TAHİROVA**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrinə işə qəbul üçün 24 oktyabr 2018-ci il tarixdə elan edilmiş müsabiqənin test imtahanları 17-29 dekabr tarixlərdə keçirilib.

Test imtahanları başa çatmışdır

Müsabiqəyə 252 vakant vəzifə çıxarılıb, 116 vakant vəzifənin tutulması üçün müraciət edən 240 nəfərdən 238-i test imtahanlarında iştirak edib. 136 vakant vəzifənin tutulması üçün sənəd təqdim olunmayıb. Müsabiqədə iştirak etmək üçün müraciətlər müsabiqə elan olunduğu gündən etibarən 30 gün ərzində komissiyanın internet portalı vasitəsilə elektron formada qəbul edilib. Ən çox müraciət ibtidai sinif müəllimliyi (54), tarix (34), ingilis dili (28), Azərbaycan dili və ədəbiyyat (25) və coğrafiya (25) ixtisasları üzrə qeydiyyata alınıb.

Test imtahanında iştirakçılara ixtisas üzrə ümumi fənn proqramına uyğun 40, metodika və təlim strategiyaları üzrə 25, informasiya texnologiyaları üzrə 15 sual olmaqla, ümumilikdə, 80 sual təqdim edilib. Sualları cavablandırmaq üçün iştirakçılara 120 dəqiqə vaxt verilib. Qanunvericiliyə əsasən stimullaşdırıcı tədbirlər tətbiq olunan müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 60 faizini (48 bal), digər müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 80 faizini (64 bal), təsviri incəsənət, musiqi və fiziki tərbiyə fənləri üzrə test tapşırıqlarının 50 faizini (40 bal) düzgün cavablandırmış namizədlər keçid balını toplamış hesab edilirlər. Vakant vəzifənin tutulması üçün müraciət etmiş namizədlər arasında keçid balını yığmaqla ən yüksək bal toplamış şəxs müvafiq vəzifəyə təyin olunur. Keçid balını toplamış 149 namizədin sənədləri müvafiq vəzifələrə təyin olunmaq üçün Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinə göndərilib.

Vakant vəzifələr üzrə aparılan test imtahanları elektron proqram təminatı vasitəsilə keçirilib. Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanların videoçəkilişi aparılıb. Test imtahanı bitdikdən dərhal sonra iştirakçılara nəticəyə dair arayış təqdim edilib. İmtahanların nəticələri komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti

Sədərəyin qədim tarixinin güzgüsü

Sədərək Rayon Tarix-Diyarşünaslıq Muzeyi Şərur rayonunun Sədərək kənd 1 nömrəli tam orta məktəbin nəzdində 1978-ci il fevral ayının 23-də ictimai əsaslarla Ölkəşünaslıq Muzeyi kimi yaradılıb. 2000-ci il iyunun 26-dan isə mədəniyyət müəssisəsi Sədərək Rayon Tarix-Diyarşünaslıq Muzeyi kimi fəaliyyət göstərməyə başlayıb, Heydərabad qəsəbəsində 2010-cu ildə bu mədəniyyət müəssisəsi üçün yeni bina ucaldılıb.

Muzeyin bölmələrini gəzdikcə, tarixin toz basmış səhifələrini vərəqlədikcə mərdlik dastanı, məğlubedilməzlik, qəhrəmanlığı, torpaq sevgisi, vətənsevərliyi ilə əsrlərboyu tarixdə iz qoyan Oğuz türkünün şanlı tarixini görürük. Burada olarkən öyrənirik ki, muzey 16 bölmə və 2 guşədən ibarətdir. Bu mədəniyyət müəssisəsində hazırda 2 min 373 eksponat var. Onlardan 1464-ü ekspozisiyada nümayiş etdirilir.

Bölgənin qədim dövründən bu günədək olan tarixini özündə əks etdirən dəyərli arxeoloji tapıntılar, mənəvi dəyərlərimizin parlaq təcəssümü olan mədəniyyət nümunələri, xalq tətbiqi sənət əsərləri, numizmatik materiallar, heykəltaraşlıq, qrafika, Erkən Dəmir dövrünə aid keramika məmulatları, soyuq silahlar, misgərlik nümunələri muzeydə özünə yer alıb. Bölmələrdə nümayiş olunan dulusçuluq, zərgərlik, toxuculuq məmulatları, dekorativ bəzək əşyaları qədim İpək Yolu üzərində yerləşən ulu yurdda sənətkarlığın, mədəniyyətin inkişafından xəbər verir. Buradakı əkinçilik alətləri – xış, kotan, vəl, mərəndi, mərgüz, göndən hazırlanmış xəlbir, nehrə və sair əşyalar sədərəklilərin hələ qədim zamanlardan əkinçiliklə, maldarlıqla məşğul olduqlarını göstərir.

Bölgənin flora və faunasından bəhs edən bölmə də öz zənginliyi ilə diqqəti çəkir, bu yurdun əsrarəngiz təbiəti haqqında dolğun təəssürat yaradır. Muzeydə "Sədərək" sözünün etimoloji mənası, elmi şərhi barədə bilgilər də yer alıb. "Kitabi-Dədə Qorqud"da adıçəkilən Sədərəyin Uşun oğlu Səgrəyin adından yaranma ehtimalı, türk səyyahı Övliya Çələbinin, fransız səyyahı Jan Şardenin XVII əsrdə Sədərəyin çox böyük yaşayış məntəqəsi olması, geniş meyvə bağları, abad meydanları, yaraşıqlı binaları, məscidləri, dükan-bazarı barədə məlumatları da diqqət çəkir.

Qədim Naxçıvanda inkişaf etmiş sənətkarlıq sahələrindən biri də xalçaçılıqdır. Bu xalçalar rəngarəngliyi, ilmələrinin sıxlığı, üzərində naxış və təsvirlərinin orijinallığı ilə seçilir. Muzeydə nümayiş olunan yun əyirmək, xalça toxumaq üçün lazım olan əşyalar da Sədərəkdə bu sənət növünün qədim tarixindən danışır.

"Sədərək qeyrət qalasıdır" bölməsi isə 1990-cı illərdə 14 dəfə erməni təcavüzünə məruz qalan rayonun ağır həyatı, mərdliklə müdafiə olunması haqqında canlı eksponatların dili ilə buraya gələnlərə çox həqiqətləri danışır. Muzey ziyarətçiləri bu torpaq uğrunda canını fəda edən 109 şəhidimizin, o cümlədən 52 sədərəkli şəhid haqqında muzeydə dolğun məlumat alırlar.

Sədərək rayonunun son illərdəki sosial-iqtisadi inkişafını əks etdirən bölmə də diqqəti cəlb edir. Muzeyin foyesində isə rayon mərkəzi Heydərabad qəsəbəsinin dünəni və bu gününü əks etdirən stend asılıb.

Onu da qeyd edək ki, ötən il Sədərək kənd sakinləri tərəfindən qədim tariximizi və mədəniyyətimizi əks etdirən xalça, o cümlədən başqa toxuculuq məmulatları, mis və saxsı qablar, digər nümunələrdən ibarət 36 eksponat Sədərək Rayon Tarix-Diyarşünaslıq Muzeyinə təqdim edilib.

✍ **Ramiyyə ƏKBƏROVA**

Sağlamlıq keşikçisi

Son illər Naxçıvan səhiyyəsində müxtəlif sahələr üzrə çalışan yüksəkixtisaslı gənc həkimlərin sayı xeyli artıb. Təkcə ötən ilin 11 ayında səhiyyə müəssisələrində işlə təmin olunan 32 həkim və 127 tibb işçisinin əksəriyyətini gənclər təşkil edir. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının Stomatologiya şöbəsinin həkim ortodont stomatoloqu Əli Məmmədov da belə kadrlardan biridir.

Əli Məmmədov 2009-2015-ci illərdə Ukraynanın Vinnitsa şəhərində İ.V.Piroqov adına Milli Tibb Universitetinin Stomatologiya fakültəsini bitirib. Bakı şəhərində həkim ortodont stomatoloq kimi fəaliyyətə başlayıb, 2018-ci ilin yanvar ayından isə uşaq xəstəxanasında çalışır. Bilik və bacarığı, səmimiliyi, ünsiyyətcilliyi qısa müddətdə kollektiv arasında hörmət, xəstələrin isə inam və etibarını qazanmasına səbəb olub.

Qeyd edək ki, ortodontiya stomatologiyanın böyümə və inkişafı davam edən və ya tam yetkin fərdlərdə görünən diş və çənə anomaliyalarının qarşısının alınması və müalicəsi ilə məşğul olan əsas sahəsidir. Əli həkim çalışdığı səhiyyə müəssisəsində bu sahə üzrə ilk mütəxəssis olmasa da, artıq bir neçə ilkə imza atmaqla müəyyən uğurlar qazanıb. Şagirdlər arasında yaz mövsümünün dərin tibbi müayinələri zamanı onun təşəbbüsü ilə distal anomaliyası olan xəstələrin müalicədən əvvəl və sonrakı rentgen analizləri aparılıb. Müalicələrdən sonra tənəffüs sisteminin tam yaxşılaşdığı müşahidə olunub.

Digər eksperiment zamanı isə xəstələr üzərində antrometrik analizlər aparılıb. Bu metod xəstənin üz çənəsinin müalicədən əvvəlki və sonrakı formaları ilə dəqiq şəkildə məlumatlanmasını təmin edib. Hazırda bu metod müalicə işinin əsasını təşkil edir. Belə ki, həkim müayinəsindən sonra xəstələrdən alınan rentgen, antopometrik fotoşəkillər və modellər üstündə ölçü və analizlər aparılaraq, ortodontik diaqnoz qoyulur. Diaqnoza uyğun müalicə təyin olunur. Müalicə kursuna əsasən mikroimplantlardan, üz maskası və xüsusi çənəliklərdən istifadə edilir.

Əli həkim bildirir ki, çalışdığı şöbədə nəzəri bilikləri tətbiq etmək üçün təhlükəsiz və müasir standartlara cavab verən tibbi avadanlıqlar var. Bu isə həkim və orta tibb işçilərinin xəstələrə yüksək səviyyəli xidmət göstərmələrinə, daha təhlükəsiz və uğurlu əməliyyatların keçirilməsinə şərait yaradır.

Gənc mütəxəssis söhbət zamanı bildirdi ki, hər bir həkimin əsas

vəzifəsi əhalinin sağlamlığı keşiyində dayanmaqdır. Ortodont stomatoloq kimi belə hesab edirəm ki, əsas vəzifəm uşaq stomatologiyasının inkişafına öz töhfəmi verməkdən, xəstələrə daha təhlükəsiz xidmət göstərilməsi üçün əlimdən gələni etməkdən ibarətdir. Elə vaxtlar olub ki, müəyyən çətinliklərlə üzləşmişəm, bu zaman həmkarlarımla məsləhətləşmişəm. Konsiliumlarda iştirakım daim öz faydasını verib. Burada öyrəndiklərim bir də odur ki, əsl həkim savadlı olmaqdan başqa həm peşəkar psixoloq, həm vicdanlı insan, həm də hamı ilə dil tapa bilən ünsiyyətcil biri olmalıdır. Çalışdığım xəstəxanada belə həkimlərlə çiyin-çiyinə işləmək mənim üçün xoşdur. Ağır anları xəstəsi ilə bərabər yaşayan, onu xilas etməyə çalışan, onunla xəstələnib onunla sağalan, kiminsə həyatının məsuliyyətini yaşayan, həyativacib qərarlar qəbul edən təcrübəli həkimlərimiz çoxdur. Onlardan öyrəndiyim budur ki, işdə professionallıq çox önəmlidir, amma insanlarla münasibət, ehtiram, prinsiplərə sadiq qalmaq və dürüstlük də vacib amillərdəndir.

Onun sözlərinə görə, çalışdığı xəstəxananın həkim ortodont stomatoloqu kimi məktəblərdəki yoxlamalar zamanı və xəstəxanaya daxil olan xəstələrdə aşkar etdiyi ortodontik qüsurlara uyğun fərdi müalicə planı həyata keçirir. Müalicədən əvvəl apardığı düzgün diaqnostika ona müalicənin sonunu proqnozlaşdırmağa imkan verir. Hər xəstəyə fərdi müalicə planı hazırlayaraq apardığı uğurlu ortodontik müalicə nəticəsində üz, diş, çənə anomaliyalarının bərpa olunması ilə yanaşı, bir sıra sistem xəstəliklərinin də yaxşılaşmasını qeydə alıb. Əli Məmmədov söhbət əsnasında onu da bildirir ki, müalicə etdiyi xəstələrin əvvəlki və sonrakı antropometrik fotoşəkillərini və çənə modellərini sonda xəstəyə təqdim edir. Deyir ki, ortodontik müalicə hər yaşda aparıla bilər, lakin ortodontik qüsurların uşaq yaşlarda aşkar edilib müalicə olunması effektiv və qısamüddətli olduğundan uşaqların hər altı aydan bir müayinədən keçməsi çox faydalıdır. Odur ki, hər bir valideyn övladının bu müayinədən keçməsinə maraqlı olmalıdır. Çünki ortodontik müalicə tam ağrısız və düzgün yerinə yetirildiyi halda zərərsizdir.

Gənc mütəxəssis ulu Tanrının bizlərə əvəzsiz bəxşişi olan sağlamlığımız təhlükə altında qalarkən, olumla ölüm arasında yaşam mücadiləsi verərkən möcüzə yaradacaqlarına inandığımız peşə sahibləri sırasında hələ ilk addımlarını atır. Bu addımlar onu gələcəyimiz olan uşaqların sağlamlığını qorumağa, onlara sevinc bəxş etməyə aparır. Bu yolda ona uğurlar diləyirik.

Hüseyn ƏSGƏROV

Fotoovçuluq haqqında nə bilirik və ya sakit ov

Təbii sərvətlərlə zəngin olan muxtar respublikamızda son illər həyata keçirilən məqsədyönlü tədbirlər hesabına diyarımızın florası xeyli genişlənib. Bunun nəticəsidir ki, əgər 20-25 il əvvəl muxtar respublikamızda yaşıllıq sahələri 0,6 faiz təşkil edirdisə, bu gün həmin rəqəm 14 faizə yüksəlib.

Həmin yaşıllıq ərazilərdə yaradılan qoruqlar, yasaqlıqlar da bu məqsədə xidmət edir və muxtar respublika ərazisinin 27 faizi ekoloji tarazlığın qorunması üçün xüsusi mühafizə altındadır. Hazırda muxtar respublikada xüsusi mühafizə olunan təbiət əraziləri – Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı, "Arpaçay", "Arazboyu", Ordubad Dövlət Təbiət yasaqlıqları və Şahbuz Dövlət Təbiət Qoruğu fəaliyyət göstərir. Bu ünvanlar həm də qədim Naxçıvanın zəngin flora və faunası haqqında geniş bilgilər vermək baxımından diqqəti çəkir. Ona görə də həmin ərazilər ölkəmizin digər bölgələrindən gələn qonaqların və xarici turistlərin cəlb edilməsində mühüm rola malikdir.

Muxtar respublika ərazisində aparılan yaşıllaşdırma, təmizlik və abadlıq işləri də təbiətimizin gözəlləşməsinə xidmət edir. Bu tədbirlərdə kütləvi şəkildə iştirak etməyi naxçıvanlılar özlərinin vətəndaşlıq borcuna çeviriblər. Bütün bunların nəticəsində ekoloji mühit xeyli sağlamlaşıb, flora və faunanın mühafizəsi işi nəzərəçarpacaq dərəcədə yaxşılaşdırılıb, turizmin inkişafına hərtərəfli şərait yaradılıb.

Xüsusi mühafizə edilən təbiət ərazilərinin yaradılması, təbiəti mühafizə sahəsində görülən kompleks dövlət tədbirləri bəhrələrini verməkdədir. Belə ki, həmin tədbirlər əvvəllər sayı tükənməkdə olan bezoar dağ keçilərinin, muflonların sayının artmasına, ərazilərimizdə yeni heyvan növlərinin yaşaması şəraitinin formalaşmasına stimul verib. Güclü mühafizə tədbirləri, ova qadağaların qoyulması yerli heyvan növlərinin sayının artmasına şərait yaradıb. Son illərdə muxtar respublika ərazisində dünyada nadir

növlərdən olan bəbirlər müşahidə olunur. 2016-cı ildə Naxçıvan ərazisində bəbir ailəsinin qeydə alınması bu növlərin ərazilərimizdə mövcudluğunun sübutudur.

Qeyd olunmalıdır ki, həyata keçirilən tədbirlər hesabına qazanılan uğurlar muxtar respublikaya turist axınını daha da gücləndirib. Hər il Naxçıvana dünyanın müxtəlif ölkələrindən gələn turistlərin sayı getdikcə artır. Müasir dövrdə geniş yayılmış ekoturizmin yarımnövlərindən biri də safari turizmidir. Bu gün safari turizmi ovçuluq, fotoovçuluq, balıq tutmaq, açıq məkanda təbii halda heyvanları müşahidə etmək məqsədilə təşkil olunan turizm yarımnövü kimi məşhurdur. Ənənəvi safarilər heyvanları nəsli kəsilmək təhlükəsi ilə üz-üzə qoyduğu üçün son dövrlərdə təşkilatçılar ov məqsədli turlardan imtina edərək sırf fotoovçuluğa istiqamətləniblər. Fotoovçuluğu bədii dillə "sakit ov" da adlandırırlar. O turistlərə təbiətə ziyan vurmadan istirahət etmək şəraiti yaradır.

Muxtar respublikamızda da fotoovçuluğun həyata keçirilməsi üçün geniş imkanlar var. Belə ki, əsrarəngiz və özünəməxsus təbiəti olan Naxçıvan ərazisi yaranması və formalaşması baxımından ən qədim regionlardan biri hesab edilir. Ərazinin geoloji keçmişini araşdırdıqda burada tropik meşələrin mövcud olduğu aydınlaşır, lakin sonradan kəskin iqlim dəyişkənliyi, həmçinin qitələrin dreyfi və digər geoloji proseslər nəticəsində regionda müasir torpaq-iqlim və ona da müvafiq olaraq biomüxtəliflik yaranıb.

Naxçıvan Turizm İnformasiya Mərkəzi də muxtar respublikada ekoturizmin inkişafı məqsədilə bir sıra işlər görür. Belə ki, Naxçıvanın təbii bulaqları, gölləri, meşələri, bənzərsiz mənzərələri və füsunkar yerləri sosial şəbəkələrdə mütəmadi olaraq təbliğ edilir. Mərkəzə müraciət edənlərin sayının ilbəil artması isə bir daha onu göstərir ki, muxtar respublika artıq turistlərin diqqət mərkəzindədir. Elə ötən il Almaniya vətəndaşı Kai Qauqerin rəhbərliyi

ilə Almaniya, Avstriya, Danimarka və Böyük Britaniyadan olan tədqiqatçılar Naxçıvan Muxtar Respublikasındakı quş növlərini görmək üçün burada səfərdə olublar. Kai Qauqerin *www.birdingaze.blogspot.com* internet səhifəsində yerləşdirdiyi Naxçıvan səfəri barədə hesabatdan aydın olur ki, tədqiqatçılar Haçadağ ətrafını, Batabat yaylağını, Nehrəm dağlarını, eləcə də Darıdağ ərazisini gəzib-dolaşıblar. Burada aladöş çərənçi, qırğıyaoxşar pöhrəçil, kiçik qartal, saqqallı leşyeyən, Berqut qartalı, ağboğaz bülbül, böyük qayalıq sittası və bezoar keçilərini müşahidə ediblər. Kai Qauqer bütün bunları Naxçıvanda keçirdikləri mükəmməl gəzintinin gözəl nəticəsi kimi qiymətləndirib.

Tur zamanı muxtar respublikanın füsunkar təbiətini, flora və faunasını, möhtəşəm təbiət abidələrini, biomüxtəlifliyini əks etdirən fotolar çəkilib sosial şəbəkələrdə paylaşılıb.

Sonda onu da qeyd edək ki, fotoovçuluq sənəti xüsusi bacarıq və texniki avadanlıq tələb edir. Lentə alınmış şəkillər sayəsində insanlar dünya ilə daha yaxından tanış olmaq imkanı qazanırlar. Bu isə muxtar respublikamızın tanıdılması baxımından əla fürsətdir. Muxtar respublikada səfərdə olmuş turistlərin rəyləri və müxtəlif elektron resurslar vasitəsilə bölüşdükləri təəssüratlar gələcəkdə Naxçıvanda fotoovçuluq turlarının arealının genişlənəcəyindən xəbər verir.

Pəri İBRAHİMOVA
Naxçıvan Turizm İnformasiya Mərkəzinin əməkdaşı

Torpaqların ekoloji qiymətləndirilməsi aparılır

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Torpaq Ehtiyatları laboratoriyası tərəfindən Naxçıvan Muxtar Respublikasının inzibati rayonlarında mədəni və təbii bitkilər altındakı torpaqların ekoloji qiymətləndirilməsi aparılır.

Laboratoriya rəhbəri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Sahib Hacıyev bu məqsədlə Babək rayonunda ekskursiyada olub. Ərazidən torpaq, bitki nümunələri götürərək fiziki, kimyəvi, morfoloji cəhətdən təhlillər aparıb. Tədqiqat işlərinin nəticələri əsasında inzibati rayon torpaq-kadastr yarımrayonlarına ayrılıb və təsərrüfatların sahələri üzrə ixtisaslaşdırılması aparılıb.

Cari ildə Culfa və Şahbuz rayonlarında da tədqiqat işlərinin aparılması nəzərdə tutulur.

AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: **Nail Əsgərov**
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1480. Sifariş № 14